ÜÇ ƏSAS

ALLAHI, ONUN PEYĞƏMBƏRİNİ VƏ İSLAM DİNİNİ
DƏLİLLƏRİ İLƏ BİLMƏK

# Həcc və Ümrənin qaydaları



## Həcc və ümrə

Mərhəmətli və rəhmli Allahın adı ilə. Həqiqətən, şükür və tərif yalnız Allaha məxsusdur. Mən şahidlik edirəm ki, Allahdan başqa ibadətə haqqı olan məbud yoxdur, onun şəriki yoxdur və şahidlik edirəm ki, Muhəmməd (sallallahu aleyhi və səlləm) onun elçisidir.

Hörmətli qardaşlarım! İslam dininin dayaqlarından biri də Allahın evini (Kəbəni) həcc etməkdir. Şərtləri yerinə yetirildiyi təqdirdə hər bir müsəlman kişi və qadına ömründə bir dəfə həcc etməsi fərzdir. Kim həcc etmək istəyirsə, o, həccin əhkamlarını və həcdə edilməsi lazım olan ibadətləri öyrənməlidir. Peyğəmbərimiz (sallallahu aleyhi və səlləm) Vida həccində səhabələrinə buyurmuşdur: “Həccin əhkamlarını məndən öyrənin”. Daha sonra sizlərə həccin əhkamlarını xatırladacağıq.

Birinci: Həccin şərtləri. Həccin şərtləri olmadıqda həcc insana vacib deyildir.

1. Müsəlman olmaq;
2. Ağlı başında olmaq;
3. Həddi-büluğa çatmaq (yaşının az olmasına və həccin çətinliyinə dözə bilməyəcəyinə görə həddi-büluğa çatmayanlara həcc vacib deyil, lakin həcc edərlərsə, etdikləri həcc səhihdir);
4. Azad olmaq;
5. Həm malı, həm də bədəni ilə həcc etməyə gücünün çatması.

İkinci: Miqatlar, yəni həcc etmək üçün ehrama girilən yer və zaman. Miqatlar iki növdür:

1. Zaman;
2. Məkan.

Zamanla olan miqatlara gəlincə, bu, xüsusilə, həccə aiddir. Ümrəyə gəldikdə isə müəyyən bir vaxt yoxdur.

Məkanla olan miqatlar isə beş sinifdir. Onları Muhəmməd (sallallahu aleyhi və səlləm) təyin etmişdir:

a) Zul-Huleyfə (Əbyar Ali) adlanır. Həm Mədinə əhli, həm də oradan keçən digər zəvvarlar üçündür;
b) Cuhfə (Rabiğ) adlanır. O, Şam əhli və oradan keçən digər zəvvarlar üçündür;
c) Qarnul-Mənəzil (əs-Səyl) adlanır. O, Nəcd əhli və oradan keçən digər zəvvarlar üçündür;
d) Yələmləm. O, Yəmən əhli və oradan keçən digər zəvvarlar üçündür;
e) Zətu-İrq. O, İraq əhli və oradan keçən digər zəvvarlar üçündür.

Kimlər bu miqatlardan Məkkəyə daha yaxın yerdə qalırlarsa, onların miqatı öz məkanlarıdır və ehrama öz məkanlarından girirlər. Həcc və ümrə etmək niyyəti ilə bu miqatlardan ehramsız keçmək olmaz. Əgər həcc və ümrə etmək istəyən şəxs təyyarədə olarsa, miqatın üzərində olduğu zaman ehrama girməlidir. Ciddəyə enənə qədər ehrama girməyi gecikdirmək olmaz. Kim həcc və ümrə niyyəti olmadan miqatdan keçər və sonra həcc və ümrə etmək istəyərsə, həcc və ümrə etmək üçün qərar verdiyi yerdən ehrama girməlidir. Kim həcc və ümrə niyyəti olmadan Məkkəyə başqa bir məqsəd üçün – elm tələb etmək, qohumunu ziyarət etmək, müalicə, ticarət və ya bu kimi işlər üçün gedərsə, əgər onun üzərinə vacib olan həcci yerinə yetiribsə, ona ehrama girmək vacib deyil.

## Həccin növləri

Həccin üç növü vardır:

**1. Təməttu həcci.** Təməttu həcci edən şəxs əvvəl ümrə edir, sonra həcc edir. O, həcc aylarında yalnız ümrə etmək niyyəti ilə ehrama girir və ümrəni bitirərək ehramdan çıxır. Sonra isə vaxtı çatdıqda həmən ilin həccinə niyyət edərək ehrama girir.

**2. Qiran həcci.** Qiran həcci edən şəxs ümrəyə və həccə birlikdə niyyət edərək ehrama girir və yaxud birinci ümrə etmək ehrama girir, sonra isə fikrini dəyişərək həcc də etmək istəyir, bu zaman həcc üçün də niyyət edir.

Məkkəyə çatdıqda ilk olaraq Qudum (Kəbəyə çatmaq) təvafını edir, sonra Səfa və Mərva arasında səy edir və onun etdiyi bu səy həm ümrənin, həm həm də həccin səyi sayılır. (Şeyx demək istyəyir ki, Qiran həcci edən adam səyi bir dəfə edir: ya gələndə Qudum təfavı ilə birlikdə edir, ya da təvaf İfədadən (ziyarət təvafından) sonra edə bilər) Bunu təvafa başlamadan öncə etməlidir. Sonra bayram gününə qədər ehramda qalır.

**3. <u>İfrad həcci.</u>** İfrad həcci edən şəxs yalnız həccə niyyət edərək ehrama girir. Məkkəyə çatdıqda isə ilk olaraq Qudum (Kəbəyə çatmaq) təvafını edir və həcc üçün Səfa və Mərva dağı arasında səy edir. Sonra bayram gününə qədər ehramda olur. Əgər istəsə, Səfa və Mərva dağları arasında səy etməyi İfəda (Ziyarət) təvafından sonra Qiran həccində olduğu kimi edə bilər (yəni istəyərsə, gələndə Qudum (Kəbəyə çatmaq) təvafından əvvəl edər, istəyərsə də, İfəda (Ziyarət) təvafından sonra edə bilər). Beləliklə, aydın olur ki, İfrad və Qiran həccinin əməlləri eynidir, yalnız Qiran həcci edən şəxs iki növ həcci cəm etdiyi üçün İfrad həccindən fərqli olaraq qurban kəsir. Bunların ən fəzilətlisi isə Təməttu həccidir, çünki Allah rəsulu səhabələrinə Təməttu həccini əmr etmiş və onları buna təşviq etmişdir.

## Ehramda olarkən qadağan olunan əməllər

Həcc və ümrə edən zəvvarlara ehramda olarkən qadağan olan əməllərdən:

1. Başından və ya bədənindən tük götürmək;
2. Dırnaqlarını kəsmək, qopartmaq və ya qısaltmaq;
3. Bədəninə və ehramına ətir vurmaq;
4. Nikah bağlamaq;
5. Qadını şəhvətlə öpmək, toxunmaq və ya buna bənzər şeylər;
6. Cinsi əlaqəyə girmək;
7. Ov ovlamaq[1];
8. Kişilərin başlarını örtməsi;

[1]Haram ərazidə ov etmək, ümumiyyətlə - həcc və ya ümrə olmasa belə, qadağandır.

9. Tikişi olan paltar geyinmək[1].

Ehramda olub həcc və ümrə edən zəvvarlara gərəkdir ki, qadağan olunan bu əməllərdən çəkinsinlər ki, onların həcci doğru olsun.

## Ümrənin vəsfi

Ümrə - ehrama girmək, təvaf etmək, Səfa və Mərva dağları arasında səy etmək, saçı kəsmək və ya qısaltmaqdır. Ümrənin əməllərinə gəldikdə isə onlar növbəti ardıcıllıqla edilir:

1. Cənabətdən qüsl alındığı kimi qüsl almaq, bədəninə və başına ətir vurmaq.
2. Ehram paltarını geyinmək. Ehram kişilər üçün izar və ridadan ibarətdir, qadınlar isə icazəli olan geyimlərdən istədiyini geyinə bilər.
3. Ümrəyə miqatda olarkən əməlini kiməsə göstərmədən və ya eşitdirmədən ixlasla "Ləbbeyk Allahummə Umratən ləə riyəə-ə fiihəə və ləə sum'a[2]" deyərək daxil olmaq.
4. Təvaf edənə qədər təlbiyə söyləməkdə davamlı olmaq, yəni: "Ləbbeykə Allahummə Ləbbeyk, Ləbbeykə lə şərikə ləkə ləbbeyk. İnnəl həmdə vən nimətə ləkə vəl mulk. Lə şərikə lək[3]."
5. Həcərul-Əsvəddə başlayıb və orada da bitirməklə Kəbəni yeddi dəfə təvaf etmək .
6. İbrahim məqamının arxasında iki rükət namaz qılmaq.
7. Səfa və Mərva dağları arasında Səfadan başlayıb Mərvada bitirməklə yeddi dəfə səy etmək (gəzmək).
8. Saçları qırxmaq və ya qısaltmaq, qadınlarda isə qısaltmaq.

---

[1] "İstər tikişlə tikilən, istərsə də digər yolla ərsəyə gələn qamis (köynək), şalvar və ya bunun kimi bədənə və ya əzaların ölçüsünə uyğun düzəldilən və onu əhatə edən geyim nəzərdə tutulur". (İbn Useymin, "Şərhul-Mumti", 7/67)

[2] Tərcüməsi: Allahım! Çağırışına cavab verib ümrə edirəm. Səndən istəyirəm ki, bu ümrəni kiməsə göstəriş və eşitdirmə olmadan, xalis sənin üçün edim.

[3] Tərcüməsi: Allahım! Sənin üçün, əmrinə cavab vermək üçün gəlmişəm. Hüzurundayam, ey şəriki olmayan, əmrinə müntəzirəm. Həqiqətən, həmd və nemət Sənə məxsusdur. Sənin heç bir şərikin yoxdur.

## Həccin vəsfi

**Həcc etmək üçün ehrama girmək.** Tərviyə günü – Zil-Hiccənin səkkizinci günü duha vaxtında ehrama girirlər. Qiran və İfrad həccindən fərqli olaraq Təməttu həcci edən zəvvar həcc üçün ehrama Məkkədən – olduğu məkandan girir. Ümrədə ehramda olarkən etdikləri əməllər həcdə ehramda olana da aiddir; qüsl alır, ətirlənir və "Ləbbeyk Allahummə Həccən[1]" söyləyərək həcc üçün ehrama girir. Sonra Minaya gedir və orada dördrükətli namazları qısaldaraq, məğrib namazı isə üç rükət olmaqla hər namazı öz vaxtında qılır və Fəcr namazını da (Minada) qılır. Doqquzuncu gün günəş çıxdıqda Minadan Ərafat dağına doğru hərəkət edir. Günəş çıxdıqda əgər o, Ərafatda olarsa, zöhr və əsr namazlarını iki rükət-iki rükət olmaqla birləşdirərək qılır. Bu həm Məkkə əhlinə, həm də digərlərinə aiddir. İnsanların dua etməyə vaxtları daha çox olsun deyə namazlar qısaldılaraq və birləşdirilərək ilk girdiyi vaxtda qılınır. Əgər Ərafatda Peyğəmbərimiz Muhəmmədin (sallallahu aleyhi və səlləm) dayandığı qayaların yanında dayanaraq dua edə bilirsə, bu daha yaxşıdır. Əgər bacarmazsa, ona rahat olan yerdə dayanaraq dua edir. Ərafatda dayanan şəxs onun sərhədləri daxilində dayandığını əminliklə bilməlidir. Kim Ərafatda gündüz dayanmağa başlayarsa, ona günəş batana qədər orada dayanmağı vacibdir. Ərafatda dayanma vaxtı bayram günü Fəcr namazına qədər davam edir. Günəş batdıqdan sonra Ərafatdan Müzdəlifəyə doğru hərəkət edir və Müzdəlifədə məğrib və işa namazlarını qılaraq orada gecələyir. Kişilərdən və qadınlardan zəif olanlara Müzdəlifəni gecənin sonunda tərk etmələri icazəlidir. Zəif olmayan və zəifləri müşayiət etməyənlər isə Peyğəmbərimizi örnək götürərək Müzdəlifədə gecələyib fəcr namazını orada qılırlar. Fəcri qıldıqdan sonra Məşhərul-Harama gələrək qibləyə yönəlib "Allahu Əkbər", "Lə iləhə İlləllah" zikrlərini edərək hava aydınlaşana qədər tövhidi bəyan etməlidir. Sonra isə Müzdəlifədən Minaya doğru hərəkət edir, bu da Zil-Hiccənin onuncu günü – bayram günü olur. Həccin həmin

[1] Tərcüməsi: Allahım! Çağırışına cavab verib həcc edirəm.

gündə olan əməllərinə gəldikdə isə birinci Minaya çatdıqda Cəməratul-Aqabəyə (Böyük Cəmərat) yeddi ədəd daş atır. Böyük daş atmaq icazəli deyil, əksinə, sünnədəndir ki, yeddi ədəd kiçik daş atsın və bunu Allahdan qorxaraq, ona təslim olaraq, təvazökarlıqla, “Allahu Əkbər” deyərək etsin. Daş atdıqdan sonra əgər özü ilə qurbanlıq gətiribsə, onu kəsir və ya kəsilməsi üçün qurbanlıq alır. Qurban kəsildikdən sonra kişilər saçlarını qırxır və ya qısaldır. Saçlarını təmiz qırxmaq daha fəzilətlidir. Həmçinin saçlarının hər tərəfindən qırxmalı və ya qısaltmalıdırlar. Qadınlara gəldikdə isə saçlarını barmaq ucu böyüklüyündə qısaldırlar, sonra isə İfəda (Ziyarət) təvafı etməkdən ötrü Məkkəyə gedirlər. Əgər Təməttu həcci edirsə, təvafdan sonra səy etməlidir, çünki onun etdiyi birinci səy ümrəyə aiddir və ona vacibdir ki, həccin səyini də yerinə yetirsin, çünki həcc bununla tamamlanır. Əgər İfəda (Ziyarət) təvafı edibsə, ondan əvvəl və ya sonra həcc üçün Səfa və Mərva arasında səy edibsə, istər İfrad həcci, istərsə də Qiran həcci olsun, artıq onun üçün ikinci təhəllül[1] baş verir və ehrama girərkən olan bütün qadağalar ona icazəli olur. Daha yaxşısı budur ki, bayram günü bu əməlləri növbəti ardıcıllıqla etsin.

Cəməratul-Aqabəyə daş atmaq, qurban kəsmək, saçları qırxmaq və ya qısaltmaq, təvaf etmək, Təvaf-Qudum (Kəbəyə çatmaq) və səy etməyibsə, istər Təməttu həcci, istər İfrad, istərsə də Qiran həcci olsun, səy etməlidir. Bunlardan sonra Minada gecələmək və şeytana daş atmaq üçün geri qayıdır. Üzürlü halda həcc və zəvvarların mənfəətləri üçün gecələməyi tərk edə bilər və təşriq günlərində günəş zeniti keçdikdən sonra hər üç cəmərata (şeytana) tək-tək ardıcıl olmaqla yeddi ədəd daş atır, hər daşı atanda “Allahu Əkbər” deyir. İlk növbədə birinci cəmərata daş atır və üzünü qibləyə çevirib əllərini qaldıraraq çoxlu dayanıb dua edir. Sonra orta cəmərata daş atır və sol tərəfində dayanıb üzünü qibləyə çevirir, əllərini qaldıraraq çoxlu dua edir. Sonra isə cəməratul-aqabəyə daş atır və orada dayanmadan oradan ayrılır. Bu günlərdə daşları yalnız

[1] Zəvvarlar ehrama girdikdən sonra onlara olan qadağaların aradan qalxması. Bu barədə məqalənin sonunda məlumat veriləcək, inşallah.

günəş zeniti keçdikdən sonra atmalıdır. Əgər on ikinci günü şeytana daş atıb bitiribsə, artıq həccin vaciblərini tamamlamışdır. Ona görə də ixtiyarı vardır ki, istəsə, on üçüncü gün Minada qalar və günəş zeniti keçdikdən sonra şeytana daş atar və ya istəsə, Minadan çıxar. Lakin on üçüncü gün Minada qalması daha fəzilətlidir.

## Vida təvafı

Əgər həcc edən şəxs Minadan çıxar, həccin bütün əməllərini yerinə yetirərsə və ölkəsinə qayıtmaq istəyərsə, o zaman Kəbəni yeddi dəfə təvaf etməyincə oradan ayrılmamalıdır. Bu Vida təvafı onun Məkkədə etdiyi son əməldir. Heyz və nifas halında olan qadınlara Vida təvafı etmək vacib deyildir.

## Təhəllül nə vaxt olur?

**Birinci təhəllül** iki şey tamamlandıqda olur:

1. Şeytana daş atmaq;
2. Saçları qırxmaq və ya qısaltmaq.

**İkinci təhəllül** dörd şeylə (tamamlandıqda) olur:

1. Şeytana daş atmaq;
2. Saçları qırxmaq və ya qısaltmaq;
3. Təvaf (İfəda təvafı) etmək;
4. Səy etmək. (İfrad və ya Qiran həcci edib səy etməyənlərə aiddir)

*Mənbə: Şeyx ibn Useyminin (Allah ona rəhmət etsin) səs yazısından tərcümə edilmişdir.*

Birinci təhəllüldə qadınla yaxınlıqdan başqa digər qadağalar aradan qalxır.

İkinci təhəllüldə isə bütün qadağalar aradan qalxır.

## Xitam

Şübhəsiz, bu tərcümə insan əməyinin məhsuludur. Ona görə də burada naqisliklərin və səhvlərin olması labüddür. Əgər tərcümədə müəyyən bir xəta varsa, bu, nəfsimizdən və şeytandandır. Allahdan istəyimiz budur ki, bizi bağışlasın və bu əməli bizdən qəbul etsin, həmçinin bu tərcüməni oxuyanları faydalandırsın və bütün müsəlmanları xeyirlə mükafatlandırsın. Allah bu işin ərsəyə gəlməsində əziyyəti olan hər bir kəsdən razı olsun.
Sonda, müvəffəqiyyət Allahdandır.

Allahın peyğəmbəri Muhəmmədə, onun ailəsinə və səhabələrinə Allahın salavatı və salamı olsun!

**Müəllif: Şeyx Səid Səlim Dərməki (Allah onu qorusun)**

**Tərcümə etdi: Toğrul Əkbərli.**

**Yoxladı: Ramin Mütəllim.**

# Mündəricat


| | |
|---|---|
| Həcc və ümrə | 1 |
| Həccin növləri | 2 |
| Ehramda olarkən qadağan olunan əməllər | 3 |
| Ümrənin vəsfi | 4 |
| Həccin vəsfi | 5 |
| Vida təvafı | 7 |
| Təhəllül nə vaxt olur? | 7 |
| Xitam | 8 |